# TARİXİMİZİ, İRSİMİZİ, FƏLSƏFƏMİZİ ANLAYARAQDAN VƏ HÖRMƏTLƏ

## *Arzu Hacıyevanın "Akademik Heydər Hüseynov" haqqında kitabı (Bakı, Elm, 2015) barədə bəzi fikirlər*




Epikür fəlsəfə ilə məşğul olmaq hələ tezdir yaxud artıq gecdir deyəni xoşbəxt olmaq üçün hələ tezdir yaxud artıq gecdir söyləyənə bənzədirdi. Başqa sözlərlə, fəlsəfə ilə xoşbəxtliyi qoşalaşdırıb bir müstəviyə gətirən antik yunan filosofu fəlsəfəni xoşbəxtliyə aparan yol kimi təqdim edir, yaşından asılı olmayaraq hamını onu sevib öyrənməyə çağırırdı. Fəlsəfə, elə özünün hərfi, etimoloji mənasında, yəni hikmətsevərlik kimi (xatırladaq ki, qədim yunan dilində filosofiya (filo + sofiya) müdrikliyi sevirəm deməkdir) bizi həmişə maqnit kimi özünə cəlb edib. Əslində, fikir versək, fəlsəfəyə tabii meylin onun bir elm və dünyagörüşü kimi predmetindən nəinki xəbəri olmayan, hətta bu sözü dilinə heç vaxt gətirməyən ən sadə insanlara da xas olub, dünyanı dərkində, davranış və əməllərində təzahür etdiyini görə bilərik. Onları fəlsəfəyə bağlayan mənbələr müxtəlifdir. Bu, atalarımızın hikmət dolu söz və məsələri, ya bir ağsaqqalın öyüd-nəsihətli ibrətamiz, mənalı söhbəti, gah mübarizəyə ruhlandıran, gah da ürəyini sızladıb dərin fikirlərə qərq edən muğamat sədaları, ya aşıq nəğməsi, yaxud da özünü və cahanı, həyatı və həyatın mənasını dərk etmək cəhdində insana sevinc ya kədər bəxş edən öz qeyri-adi, əsrarəngiz mühakimələri ola bilər. Bizə gəlincə, müdrikliyin mənbəyi hər şeydən əvvəl klassik mənəvi irsimizin, xüsusilə poeziyamızın mənalar çeşməsi olan inciləridir ki, burada dünyanın metafizik qatlarından tutmuş etik məzmun daşıyan adi həyat hadisələrinə qədər bir mövzu, iri-xırdalı bir məsələ belə diqqətdən kənarda qalmamışdır.

Lakin, deyildiyi kimi, fəlsəfə ilə peşəkarcasına məşğul olanlar, Epikürün həmin o xoşbəxt sandığı insanlar da ən qədim zamanlardan olmuş və indi də vardırlar. Yaxınlarda onlardan biri, Azərbaycanın fəlsəfə sahəsində ilk akademiki, AMEA-nın təsisçilərindən olmaqla, ölkəmizdə fəlsəfənin inkişafında müstəsna xidmət göstərmiş, Azərbaycan fəlsəfə tarixinin bir elm kimi təməlini qoymuş Heydər Hüseynov haqqında oxuduğumuz kitab bizi fəlsəfənin, xüsusilə bizim üçün doğma olan Azərbaycan fəlsəfəsinin tarixi və məşhur simaları, müxtəlif mürəkkəb və mühüm problemləri dairəsinə saldı. Bu dairədə səyahətimizdə bizə yol göstərib istiqamət verən, tədqiqatın dərinliyi, çıxardığı nəticələrin ictimai və fəlsəfi fikrin açılmamış çalarlarını üzə çıxarması ilə seçilən dəyərli əsərlər müəllifi kimi tanıdığımız bələdçimiz də vardı.

Söhbət Fəlsəfə və Hüquq institutunun fəlsəfə və ictimai fikir tarixi şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru Arzu Əşrəf qızı Hacıyevanın "Akademik Heydər Hüseynov" kitabından gedir. Görkəmli filosofun həyat və yaradıcılığı haqqında 2015-ci ilin sonlarında "Elm" nəşriyyatında işıq üzü görən bu ilk fundamental monoqrafiya AMEA-nın 70 illiyinə həsr edilmişdir. (Xatırladaq ki, kitabın baş məsləhətçi və elmi redaktoru akademik Akif Əlizadə, redaktoru professor İlham Məmmədzadədir).

Qeyd etməliyik ki, Arzu Hacıyeva təfsir nəzəriyyəsi və fəlsəfəsi kimi hermenevtikaya dair əsərləri ilə humanitar elm və fəlsəfəmizə yeni mövzu gətirmişdir. Heydər Hüseynovun intellektual bioqrafiyasını dövrün siyasi-ideoloji, elmi-mədəni, mənəvi-psixoloji mənzərəsində canlandıran bəhs etdiyimiz monoqrafik tədqiqat əsəri hermenevtikanın nəzəri müddəalarının praktikada tətbiqinin mükəmməl ifadəsini təmsil edir.

Yeri gəlmişkən, əsərdə qaldırılan çoxsaylı problemlərdən biri elə məhz metodologiya məsələsi olub, onun tarixi hadisələrə obyektiv elmi yanaşmaya nail olmaqda, keçmişin, mənəvi-tarixi irsin maddiləşdiyi mətnləri adekvat anlamaqda vacibliyinə diqqətin cəlb edilməsidir. Arzu Hacıyeva A.Koyrenin keçmişə münasibətin daim dəyişməsi, təzələnməsi barədə "hərəkətsiz keçmişdən daha tez dəyişən heç nə yoxdur" kəlamını təsadüfən yada salmır. Akademikin yaşayıb-yaratdığı olduqca mürəkkəb dövr olan XX əsrin birinci yarısı, xüsusilə ortaları, əbədi zaman kontekstində götürsək, tarixi məsafə baxımından bu günümüzdən o qədər də uzaq deyil. Bununla belə, XX əsrin birinci yarısına və bu dövrdə yaradılan əsərlərə münasibət hazırda birmənalı olmayıb kəskin şəkildə dəyişilmişdir.

Heydər Hüseynovun şah əsəri olan "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabının (1949) qəribə taleyi vardır: 1950-ci ildə o, Stalin (Dövlət) mükafatına layiq görülmüşdü, lakin tezliklə mükafat geri alınaraq, "pantürkizm"də, "panislamizm"də ittiham edilmiş, "marksizmə zidd", "burjua millətçiliyinin təzahürü" olan "nöqsanlı, ziyanlı" kitab elan edilmişdir. Getdikcə genişlənən böhtan kampaniyası 42 yaşlı akademikin həyatı ilə faciəvi şəkildə vidalaşması ilə nəticələnmişdi. Onun SSRİ məkanında bir millətin fəlsəfəsinə həsr edilən bu ilk əsəri milli özünüdərk səciyyəsi daşıyırdı. Bununla belə, bu gün yazıldığı dövrün siyasi-ideoloji özəlliklərindən dolayı bir çox məqamlarında müasir oxucuda qəribə təsir oyadır. Arzu Hacıyeva haqlı olaraq göstərir ki, "hər bir şair, ədib, mütəfəkkir özündə yaşadığı zamanın təkrarolunmaz ruhunu daşıyır, onun əsərlərində mühitin digər dövrlər üçün anlaşılmaz ola bilən izləri öz əksini tapır" (s. 212). Konkret zamanın izlərini açmaq, müasir oxucuya anlaşıqlı etmək isə tədqiqatçının elmi hazırlıq səviyyəsi, şərhçilik məharəti, rəhbər tutduğu metodla yanaşı onun məsuliyyətindən, hətta vicdanından da asılıdır.

Araşdırdığı tarixi dövrün təcrübəsinin konseptual təqdimində müəllif hermenevtikanın üsul və vasitələrindən məharətlə bəhrələnir. Tarixi gerçəkliyin rekonstruksiyasını mətnlərdəki mənanın bərpası və ya yeni məna yaratmaq, ya da ikisinin bir yerdə sintezi vasitəsilə gerçəkləşdirir. Arzu Hacıyevanın fikrincə, hermenevtikanın əsaslandığı ən mühüm prinsiplər, yığcam şəkildə ifadə etsək, dövrlər, keçmiş və indi arasında körpü yaratmaqdır, tədqiqat obyekti olan şəxsiyyəti və onun təlimini, mülahizələrini nə tənqid etmək, nə də tərifləmək olmayıb, anlamaqdır, anlamaqla onun mətndə açıq deyə bilmədiyi, lakin dediyini aşkar etməkdir.

Monoqrafiyanı oxuduqca, Arzu xanımın şərh üslubuna xas özəllikləri müşahidə etdikcə, hüquqşünas kimi bizi maraqlandıran bəzi məqamlar diqqətimizdən yayınmadı. Məlum olduğu kimi, ümumilikdə hüquq elmində, o cümlədən qanunların anlanması və tətbiqində şərh, kommentarilərsiz, başqa sözlə, hermenevtikasız keçinmək olmur. Axı hamı bilir ki, qanunun "hərfi" olduğu kimi "ruhu" da vardır və bu ruh təfsiri zəruri edir. Təsadüfi deyil ki, hüquqşünaslıqda son zamanlar xüsusilə aktuallaşan anlama probleminin ayrı-ayrı elementləri hələ orta əsrlərin müsəlman Şərqinin fiqhinə də xas idi.

A.Hacıyeva təfsirin əhəmiyyətini nəzərə çatdırmaq üçün "Hermenevtika Şərqdə" (2006) monoqrafiyasının bir yerində çox sevdiyimiz və şeirlərini əzbər bildiyimiz Seyid Əzim Şirvaninin mülahizələrinə müraciət etmişdi. Böyük Azərbaycan şairi XIX əsrdə şeirlərin sözlərinin rəmzi xarakter daşıdığını, buna görə "Ləfz təvilsiz olur batil" deyə təvilin, yəni alleqorik şərhin, təfsirin zəruriliyini anlamayanları cahil adlandıraraq yazırdı:

*Hər sözün zahirilə batini var,*
*Əhli mənə olulla bərxürdar.*
*Əksər ayat olmasa təvil,*
*Qalı mübhəmdə mənayi tənzil.*

Yəni şair göstərirdi ki, insanlara nazil olan bir çox Quran ayəsinin mənasını onların yalnız hərfindən çıxış etməklə, təvilsiz anlamaq müşküldür.

Təbiidir ki, təkcə Quran ayələri və şeirlər deyil, qanunlar və digər hüquq normaları da, ədəbi, fəlsəfi və i.a. əsərlər də, bir sözlə, istənilən mətn onu yazanın intellektual səviyyəsi, psixologiyasından tutmuş öz dövrünün əlamətlərinə qədər özündə xeyli informasiyanı ehtiva etdiyindən təfsirə ehtiyac duyur. Arzu xanımın H.Hüseynovun əsərlərindəki bu informasiyanı, daha dəqiq desək, mətnlərin özlərində ehtiva etdikləri "izləri" necə açmasını izləyərkən təhqiqat və tədqiqat sözlərindəki məna yaxınlığı bizə əyan oldu. Bu sözlərin hər ikisi ərəb mənşəli sözlər olub, hər ikisində həqiqəti axtarıb, araşdırıb üzə çıxarmaq mənası var. Bəzən adama elə gəlir ki, Arzu xanım sanki təhqiqat aparır. O, hər cümləyə, hər sözə, bunları əhatə edən kontekstə diqqət yetirir. Heydər Hüseynov düşüncəsinin mətndə reallaşana qədər keçdiyi yolu onun başlanğıcına, mənşəyinə doğru əks istiqamətdə qət edir, filosof alimin söz və ifadələrində ilk baxışdan nəzərə çarpmayan əsl məqsədini, niyyətini üzə çıxarır. Mətndə müxtəlif ədəbiyyat, mənbələrdən gətirilən iqtibaslarda, onlara verilən şərhdə hər hansı bir uyğunsuzluq sezincə həmin mənbələrin özünü tədqiqat obyektinə çevirir və ciddi araşdırma həqiqətin orijinal təfsirdə oxucuya "görünməsi" ilə nəticələnir. Bu həqiqət oxucunu inandırır.

Dəlilsiz olmasın deyə monoqrafiyada dediklərimizi təsdiq edən çoxsaylı nümunələrdən birini nəzərdən keçirək.

Heydər Hüseynov "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabının "Giriş"ində Füzulinin "Mətləül-etiqad" traktatından müəyyən ixtisarlarla xeyli böyük bir fraqmenti iqtibas gətirir. Burada Füzuli cəmiyyətdə mövcud olan sosial ədalətsizliyə, insanları varlı və kasıba bölən sosial bərabərsizliyə qarşı çıxır. Deyir ki, kasıb xeyirxahdırsa, yoxsulluqdan çəkdiyi əzabın müqabilində əvəz olaraq mütləq mükafat almalıdır. Amma insan xislətindəki şəhvət və qəzəb qüvvələri güc gələndə məzlum bir insan qarət edilir, zülm ilə öldürülür. "Əgər bunun əvəzində cəza verilməzsə, ədalət pozulmuş olar" deyə dahi şairimiz bu vəziyyətin ədalətsizliyinə etiraz edir XVI əsrdə, dinin yeganə hakim ideologiya olduğu feodal mühitində Füzulinin bu cür "inqilabçılığı" A.Hacıyevaya qəribə görünür. Və o, H.Zərinəzadənin tərcüməsində "Mətləül-etiqad"ın həmin hissəsinə nəzər salır. Və görür ki, H.Hüseynov həmin fraqmentin sonunda Füzulinin bir cümlədən ibarət Tanrının mükafatı da, cəzanı da ancaq ölümdən sonra verməlidir deyə ədalətin bərpasını məhşərə saxladığı barədə cavabını ixtisara salmışdır. İqtibas traktatın elə "Məhşər haqqında" adlanan paraqrafındandır. Aşkara çıxardıqlarını müəllif inandırıcı məntiqlə belə təfsir edir: "Əslində o (yəni H.Hüseynov), yaşadığı Stalin dövrünə (həmin dövrdə, bildiyimiz kimi, ateizm hörmətdə idi - İ.V.) güzəştə gedir və bir cümləni ixtisar etməklə Füzulinin sözlərindəki mübariz ruhu sonadək saxlamağa müvəffəq olur. Füzuli də öz dövrünə güzəştə gedir, bəlkə həmin bir cümlə ilə müdafiə olunaraq, ləyaqətli insanların əzab-əziyyət, ləyaqətsizlərin kef çəkdikləri, dininsə ədalətin bərpasını axirətə saxladığı feodal cəmiyyətində hökm sürən zülmə, yoxsulluğa, haqsızlığa qarşı qəlbində baş qaldıran narazılığı, etirazı açıq şəkildə ifadə edirdi" (s.171). Beləliklə, bircə cümlə tarixi epoxaların gerçəklikləri arasındakı fərqi, azadlığın boğulduğu cəmiyyətlərdə yaradıcı insanların fikirlərini xalqa çatdırmaq üçün əsərlərində müxtəlif "sınanılmış" gizli vasitələrə əl atmaq məcburiyyətində qalmalarını nümayiş etdirir.

Maraqlıdır ki, Arzu Hacıyevanın nəzərindən sanki heç nə yayınmır. O, H.Hüseynovun məşhur kitabında onun ilk, 1949-cu il nəşrində yerləşdirilən şəkillərin - XIX əsr mütəfəkkirlərinin kitablarının, yaxud məqalələrinin dərc olunduğu dərgilərin üz qabığının, titul vərəqlərinin, bəzən hansısa səhifələrinin fotosurətlərinin də mənayaradıcı rol oynadığına diqqəti cəlb edir. Mövzu xətərli olanda, sovet ideologiyasına uyğun gəlməyəndə akademik "oxucusu ilə şəkillərin dili ilə danışmağa üstünlük" verdiyini xüsusi olaraq vurğulayır (s. 192-193).

Ümumiyyətlə, mövzuya dərindən nüfuz etmə, müəllif mövqeyinin dürüstlüyü, düşündürücü, bəzən təzadlı dönüşləri ilə seçilən yeni fikirlər, maraqlı müqayisə və şərhlər, elmiliyə, ciddi məntiqə söykənən təfsirlər, dərin müşahidə və təhlil əsərə xüsusi sanbal və dəyər verir. Arzu Hacıyeva Heydər Hüseynovun və onun yaşadığı dövrün timsalında tariximizə, mənəvi irsimizə, fəlsəfəmizə həssas münasibət təlqin etməklə, bu zəngin irsə onu anlayaraqdan varislik hissi, hörmət və ehtiram aşılamaqla müasir fəlsəfi-tarixi tədqiqat əsərinin gözəl nümunəsini yaradır.

Daha bir məqamı qeyd etmək istərdik. Dövrün və filosofun həyatının dramatizmini oxucuya dürüst çatdırmasına rəğmən, əsər nikbin notlara köklənmişdir. Bu nikbinliyi biz artıq ulu öndərimiz Heydər Əliyevin epiqraf kimi kitabın "Ön söz"ünə çıxarılan, 1945-ci ildə Elmlər Akademiyasını yaradan alimlərimizin (onların arasında Heydər Hüseynovun da adı çəkilir) fəaliyyətini həmin çətin, ağır illərin nailiyyəti kimi, bu günkü müstəqilliyimizin böyük əsası kimi dəyərləndirən sözlərindən duyuruq. Bu nikbinlik Azərbaycan xalqının tarixin ən qaranlıq, ən çətin istibdad dövrlərində belə Vətənin azadlığı və xoştəxtliyi, mədəni inkişafı naminə, bəzən hətta öz həyatları bahasına, mərdliklə mübarizə aparıb sonadək öz missiyalarına sadiq qalan dahi şəxsiyyətlər yetişdirməsindən rişələnən qürur hisslərindən doğur, fəlsəfəmizin bugünkü uğurlarından, müstəqilliyimizin elm qarşısında geniş perspektivlər açdığına inamdan qüvvət alır.

**İSAXAN VƏLİYEV,**
**Hüquq elmlər doktoru, professor,**
**Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri.**